# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 406** **Bakı şəhəri, 4 noyabr 2022-ci il**

**Torpağın dövlət ehtiyacları üçün alınması barədə**

"Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 382 nömrəli Fərmanının 1.1-1-ci yarımbəndinə əsasən, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq torpaqların dövlət ehtiyacları üçün alınması işlərinin yekunlaşdığını nəzərə alaraq, "Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən, Bakı şəhəri, Qaradağ rayonunun inzibati ərazisində Ələt azad iqtisadi zonasının ərazisi qismində müəyyən edilmiş torpaq sahəsinin hüdudları daxilində yerləşən xüsusi mülkiyyətdə olan 9,9185 hektar torpaq sahəsi dövlət ehtiyacları üçün alınsın (yerquruluşu planı əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərarın 1-ci hissəsində qeyd edilən dövlət ehtiyacları üçün alınan torpaq sahəsi ilə birlikdə Ələt azad iqtisadi zonasının ərazisi qismində müəyyən edilmiş torpaqların hüdudları daxilində yerləşən dövlət mülkiyyətinə aid torpaq sahələrinin Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumuna birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə verilməsi barədə təkliflərini müvafiq yerquruluşu planları ilə birlikdə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

Xalq qəzeti .- 2022.- 11 noyabr.- S.12.